# AVAR XALQININ ETNİK TARİXİNDƏN

## From History of Avars

**Doç. Dr. Məhəbbət PAŞAYEVA***

**ÖZ**

Məqalədə Azərbaycanın Şəki-Zaqatala bölgəsində yaşayan azsaylı xalqlardan avarların etnik tarixi problemi araşdırılmışdır. Azərbaycan tarixşünaslığında bu problemin araşdırılması ilə bağlı mövcud istiqamətlər təhlil edilmişdir. Mövcud yazılı mənbələlər və etnoqrafik materiallar əsasında Qafqazda, o cümlədən Azərbaycanın Şəki-Zaqatala bölgəsində yaşayan müasir avarların qədim türk avarların varisi olduğu qənaətinə gəlinmişdir.

**Anahtar Sözcükler**

Avarlar, etnik tarix, azsaylı xalqlar

**ABSTRACT**

This article investigates historical ethnic problem of paucity – “Avars” which live in the region of Sheki-Zagatala of Azerbaijan. Throughout Azerbaijani historical science, varieties of the direction were discussed related to the investigation of this problem. From real handwritings and ethnic materials the opinion gained was that the “Avars” which lived before are the ancestors of modern “Avars” who live on Caucasus.

**Key Words**

Avars, ethnic history, paucity.

Bu gün Azərbaycanda türkdilli azərbaycanlılarla yanaşı, özlərini onlar qədər azərbaycanlı sayan avarlar, saxurlar, ingiloylar, talışlar, udilər, xınalıqlar, qrızlar, haputlar, buduqlar kimi bir çox azsaylı xalqlar və etnik qruplar da yaşamaqdadır. Dünyanın etnik xəritəsində yalnız Azərbaycan ərazisində qeydə alınan bu nadir etnoslar öz etnik kimliklərini günümüzədək qoruyub saxlamışlar.

Tarixin müəyyən dövrlərindən Azərbaycanı özlərinə məskən seçmiş avarlar, saxurlar, ingiloylar, udilər, talışlar, xınalıqlılar kimi etnik qruplar əsrlər boyu Azərbaycan türkləri ilə bərabər yaşayaraq zaman keçdikcə bir-birilə qaynayıb qarışmışlar. Lakin bu etnosların hər biri Azərbaycan türkləri ilə ümumi, vahid mənəvi dəyərlərə sahib olmaqla yanaşı öz etnik spesifikliyini də müəyyən dərəcədə qoruyub saxlayaraq bütövlükdə Azərbaycan mənəvi mədəniyyətinə özünəməxsus rəng qatmışlıar.

Azərbaycanın Lənkəran-Astara, Quba-Xaçmaz, Şəki-Zaqatala kimi bölgələri talışlar, tatlar, ləzgilər, xınalıqlar, hapıtlar, buduqlar, avarlar, saxurlar, ingiloylar, udilər kimi etnik qrupların əsrlər boyu Azərbaycan türkləri ilə birgə yaşadıqları tarixi-etnoqrafik bölgələr olduğu üçün hər zaman etnoqrafların diqqət mərkəzində olmuşdur. Xüsusilə də, Şəki-Zaqatala bölgəsi polietnikliyi ilə seçilən bölgədir. Hazırda Avarlar Azərbaycanın Şəki-Zaqatala bölgəsində yaşayırlar. Azərbaycanda məskun olan azsaylı xalqlar içərisində say etibarilə nisbətən böyük olan etnoslardan biri avarlardır. Nadir etnoqrafik xəzinələrdən sayılan Şəki-Zaqatala ərazisində əhalinin böyük əksəriyyətini təşkil edən Azərbaycan türkləri ilə yanaşı avarlarlar, həmçinin saxur, rutul,

* Azərbaycan Milli Elmlər Akademiyası, Arxeolojiya və Etnoqrafiya İnstitutunun baş elmi işçisi

udi, ingiloy kimi etnik qruplar da məskundurlar.

Avarlar əsasən Zaqatala, Balakən rayonlarının Tala, Abalı, Yuxarı Çardaqlar, Aşağı Çardaqlar, Nuxbada, Qırqılı oba, Yolayrıc, Solban, Meşə Şambul, Cincartala, Oytala, Paşanoba, Beretbinə, Çiçibinə, Məzimçay, Qoçəhməd, Çədərovtala, Kilsəburun, Kebelolba, Axaxdərə, Zilbal, Mazıx, Qobızdərə, Maqov, Uzuntala, Danaçı, Hotavar, Abaçı, Katex, Qabaqçöl, Mahamalar, Binə, Sarıbulaq, Car, Yuxarı Tala, Dardoqqaz, Göyəmtala kimi kəndlərdə yaşayırlar. Bu ərazidə yaşayan avarlar Qafqaz dillərinin Dağıstan qrupuna daxil olan avar dilinin Zaqatala şivəsində danışırlar. Avarların bir hissəsi də Dağıstanın cənubunda, əsasən Axvax, Botlix, Qerqebil, Qunib, Qumbetov, Kazbek, Sumadit, Suntin, Xunzax, Suxul, Çarodi, Tilyarat rayonlarında yaşayırlar.

1886-cı il siyahıyaalmasına görə Azərbaycanda avarların sayı təqribən 40225(Ган 1902: 55), 1897-ci ildə 35 min, 1926-cı ildə 19.1 min nəfər olmuşdur. Lakin XIX əsr rus mənbələrində avarlar, saxurlar, rutullar siyahıyaalma sənədlərində ümumi olaraq “Car Balakən” ləzgiləri adlandırıldıqları üçün bu məlumatda avarların sayı dəqiqi deyil. 1959-cu ildə17.3,1070-ci ildə 30.7 min, 1979-cu ildə 36 min, 1989-cu ildə isə 44.1 min (Национальный 1990:4-5).

XIX əsr rus mənbələrində bütün dağıstn xalqlarının, eyni zamanda avar və saxurların “Car ləzgiləri” və ya “ləzgi” adlandıılması Rusiya imperiyasının milli-müstəmləkə siyasəti ilə bağı idi. XIX əsrdən etibarən Qafqazı işğal edən Rusiya imperiyası bu ərazidə “Parçala, hkm sür!” milli-müstəmləkə siyasətini həyata keçirərək əsrlərlə mehriban qonşuluq münasibətlərilə ilə yaşayan qardaş xalqlar arasına ədavət toxumu səpməyə çalışırdı. Azərbaycan türkləri ilə bərabər avar, ingiloy, udi, saxur, rutul kimi müxtəlif azsaylı xalqların da da yaşadığı Azərbaycanın Şəki-Zaqatala bölgəsində Rusiya imperiyası daha məkrli dini-milli siyasət aparırdı. Çünki Azərbaycanın şimal-qərbində yerləşən bu ərazi Rusiya üçün xüsusi hərbi strateji əhəmiyyət daşıyırdı. Bu müstəmləkə siyasətinə xidmət edən imperiya tarixçiləri də Azərbaycanın qədim türk yurdu olmasını hər vasitə ilə unutdurmağa çalışırdılar. Bu məqsədlə Azərbaycan türklərini rus tarixçiləri “tatar”, “muğal”, “padar”, “tərəkəmə” kimi müxtəlif adlara bölərək onların bu ərazilərə “gəlmə” və az sayda olduğunu sübut etməyə çalışırdılar. Şəki-Zaqatala bölgəsində məskun olan avar, saxur, rutul kimi etnosların da adlarının tədricən yaddaşlardan silinməsi məqsədilə XIX əsr rus mənbələrində bu xalqlar “Car-Balakən ləzgiləri” adı altında ümumiləşdirilirdi. Beləliklə də bu etnosların etnik mənşəyini unutdurmağa çalışrdılar.

Azərbaycan tarixşünaslığında avarların etnik tarixinin araşdırılması işində müxtəlif istiqamətli tədqiqatlar mövcuddur. Bu problemlə bağlı bir sıra tədqiqatlarda Qafqaz avarları ilə türk avarların bir-birindən tamamilə fərqli etnos olduğu konsepsiyası movcuddur. Bu konsepsiyaya görə Qafqaz avarları qədim mənbələrdə *lbin, silv* adları ilə məlum olan və qədim Azərbaycan dövləti Qafqaz Albaniyasının Lpina vilayətində məskun olmuş etnosların varisləridir, Dağıstan avarları ilə türk avarlar fərqli etnoslardır (Гейбуллаев: 151-152,154; Сумбатзаде 1990: 82; Dünya Halkları Ansiklopedisi 1998: 16).

Lakin bir çox tədqiqatçılar

Qafqazda yaşayan avarların məhz türk avarların varisləri olmasını və Qafqaza tez-tez yürüşlər edən zaman onların bir hissəsinin Dağıstan ərazisində ləzgilər arasında qalaraq zaman keçdikcə öz dilini və etnik mənsibiyyətini itirə biləcəyini də ehtimal edirlər (Велиев 1921: 23; Mahmudlu 1999: XII). Məsələn, XX əsrin əvvəllərində Azərbaycan etnoqraflarından Baharlı avarların tez-tez Qafqaza yürüşlər edərək bu ərazidə qafqazdilli etnoslar arasında onların bir hissəsinin həmişəlik məskunlaşaraq tədricən öz dillərini itirən türk tayfası olduğunu yazırdı (Велиев 1921). Tarixçi-prof. Yaqub Mahmudov da müasir avarların qədim avar türklərinin varisləri olması ilə bağlı haqlı olaraq qeyd edir ki, Qafqaz avarlarını türk avarlardan, saxurları saklardan, balkarları bulqarlardan ayırmağa, bunların bir-birindən tamamilə fərqli etnoslar olduğunu təsdiq etməyə tələsməməliyik (Mahmudlu 1999). Bu konsepsiya avarların etnik tarixinin daha dərindən və fərqli istiqamətdə tədqiq olunması zərurətini ortaya çıxarır. Belə baxış, eyni zamanda Azərbaycanın saxurlar, udilər, ingiloylar kimi digər etnik qruplarının da tarixinin daha fərqli istiqamətdə tədqiqinə yol açmış olur.

Görünür, hun birliyinə daxil olan bulqar türkləri, macarlar kimi bir sıra türk tayfaları doğma Altay mühitindən ayrı düşdükdən sonra assimilyasiyaya uğrayaraq əvvəlki etnik mənsubiyyətlərini itirdikləri kimi, avarlar da Baş Qafqazın xarici aləmdən təcrid olunmuş mühitinə - iberqafqaz xalqlarının əhatəsinə düşərək assimilyasiyaya uğramışlar.

Məlumdur ki, V əsrdə Avropada Hun imperiyası dağıldıqdan sonra Mərkəzi Asiyadan Şərqi Avropaya tərəf hərəkət edən bir çox türk boyları 558-ci ildə qüdrətli türk dövlətini-Avar İttifaqını yaratmışdılar. Mənbələrin də yazdığı kimi, 568-ci ildə avarların hakimiyyəti Elbrusdan Volqayadək uzanırdı (Бакыханов 1991: 23). Avar ittifaqının yaranması ilə avarların Qafqaza axını daha da güclənərək kütləvi hal almışdı. Qədim mənbələr də bir çox türk tayfalarının, o cümlədən avarların V-VI əsrlərdə Azərbaycan ərazisinə tüz-tüz yürüşlər edərək getdikcə daha böyük kütlələrlə Azərbaycana axışaraq burada məskunlaşdığını yazırdılar (Сумбатзаде 1990: 82). Lakin VII əsrdən etibarən avarlar müxtəlif xalqlarla müharibələr apararaq tədricən zəifləməyə və qüdrətini itirməyə başladılar. Nəticədə bu dövlət 805-i ildə franklar tərəfindən dağıdıldıqdan sonra, görünür, avarların bir qismi Qafqazda həmişəlik məsunlaşdı. XIX əsrdə Abbasqulu ağa Bakıxanov yazırdı ki, qüdrətli avar xalqının bir tayfası indi də Qafqaz dağlarında yaşayır və öz dilinə, adət-ənənəsinə, hökmdarına malikdir. Qafqaz avarlarının xanı Avar usmisi adlanırdı (Бакыханов 1991: 24). Avarların Dağıstan əarzisində XII-XIX əsrlər boyu mövcud olan Avar xanlığını yaratdıqları məlumdur və 1803-cü ildə bu xanlıq Qafqazın bütün bölgələri kimi işğal edilərək Rusiyaya qatılmışdı (Hacıyeva 1997: 15). Görünür, Avar İttifaqının qüdrətinin azaldığı bu mərhələdə ayrı-ayrı tayfaların ondan ayrılması nəticəsində parçalanan avarlar tamamilə dağılaraq Qafqaz dağlıları arasında tədricən öz dillərini itirmişlər.

Antik mənbələrdə eranın ilk əsrlərindən hunların tərkibində avar, bulqar, xəzər, suvar, katak kimi bir çox türkmənşəli tayfaların Şimali Qafqazda məskun olması və həmçinin Qafqaz Albaniyası ərazisində yerləşməsi

barədə məlumatlar var.

Ümumiyyətlə, Qafqazda hun ittifaqına daxil olan avarların məskunlaşma tarixi ilə bağlı mənbələrdə verilən məlumatlara daha diqqətlə nəzər saldıqda aydın olur ki, avarların Qafqaza nə zaman gəldikləri barədə mənbələrdə dəqiq məlumat verilmir. Belə ki, mənbələrdə V əsrin sonu-VI əsrin əvvəllərində Dərbənd yaxınlığında 13 türkdilli tayfa, o cümlədən savirlər, avarlar ... vəs. tayfaların yaşaması barədə məlumat verilsə də (Пигулевская 1941: 9-10), avarların Qafqaz ərazisində nə zamandan bəri məskun olmaları barədə dəqiq söz deyilmir. Bunu nəzərə alsaq, hunlar kimi avarların da Qafqaz ərazisində məskunlaşma dövrünün daha erkən mərhələlərdən başladığını, eranın ilk əsrlərindən bəri Qafqazda yaşayan yaşayan hunlarla bərabər bu bögədə tədricən məskunlaşmağa başladığını, bəlkə də bir qisminin daha erkən dövrlərdən bu əraziərdə yaşadığını ehtimal etmək olar. Maraqlıdır ki, hələ II əsrdə yunan müəllifi Bizanslı Stefan avarların adını çəkərək onların udilərlə qonşuluqda yaşadığını qeyd edirdi (Латыщев 1893: 146). Bu məlumat avarların Qafqazda daha erkən dövrdə də yaşaması ehtimalını gücləndirir. Görünür, onların Qafqazda məskunlaşması erkən dövrlərdən etibarən mərhələlərlə davam etmiş, orta əsrlərdə isə bu proses bir sıra tarixi hadisələrlə əlaqədar olaraq daha da güclənərək kütləvi hal almışdır

Avarların Azərbaycanın şimal-qərb bölgəsində məskunlaşması XV-XVI əsrlər boyu mərhələlərlə davam etmişdir.Məludur ki, avarlar döyüçkən tayfa olduğu üçün vaxtaşırı olaraq müxtəlif müharibələrə cəlb edilirdilər. Məsələn, hələ erkən orta əsrlərdə avarlar Qafqaz uğrunda gedən Bizans-İran müharibələrinə cəlb edilmişdilər. V-VI əsrlərdə olduğu kimi XV-XVI əsrlərdə də Azərbaycanın şimal-qərb bölgəsində gedən bir sıra hərbi əməliyyatlara cəlb edilən (məsələn, XV əsrdə kaxetiyalıların onları düşmən basqınlarından qorumaq üçün dəvəti, daha sonra XVI əsrdə (1616) Səfəvi hökmdarı hökmdarı I şah Abbasın dəvəti) avarlar tədricən bölgədə kütləvi şəkildə məskunlaşmağa başlamışdılar. I şah Abbasın Azərbaycanın şimal-qərb torpaqlarında apardığı mərkəzləşdirmə siyasəti nəticəsində isə avarlar bu ərazilərdə birdəfəlik məskunlaşmışdılar.

Cənubi Dağıstan ərazisindən avarların və saxurların ümumiləşdirilmiş "ləzgi" adı ilə Şəki-Zaqatala bölgəsinə köçməsi barədə ilk dəfə XIX əsr rus müəllifi A.I.Fon-Plotto məlumat vermişdir. O yazır ki, "ləzgilər dağlardan Car dairəsinə enərək ... Car əyalətində Car, Balakən, Tala, Muxax, Cınıx icmalarını təşkil etdilər (13,6-7) Tarixi ədəbiyyatda bu icmalar Car-Balakən icmaları adlanırdı. Baharlı da Azərbaycan avarlarının Avarıstandan gəldiyini (Dağıstan ərazisi) qeyd edərək onların XV əsrdən etibarən Azərbaycanda məskunlaşması barədə məlumat verir (Велиев 1921: 23). XIX əsr rus müəlliflərinin verdiyi məlumata görə, Azərbaycanın çimal-qərb ərazilərində yerləşən "ləzgilər"(Burada da "ləzgi" avar, saxur, rutulların ümumiləşdirilmiş adı kimi qeyd olunub.-M.P.) bir neçə ittifaq yaratdılar: Car_Balakən ittifaqı Car-Balakən müstəqil icmalarını özündə birləşdirirdi; Tala ittifaqı Tala, Muxax və Cınıx müstəqil icmalarından ibarət idi; İlisu ittifaqına İlisu sultanlığının tərkibində olan İlisu, Qaradolaq, Baş Suvagil və Saxur daxil idi. Bu ittifaq İlisu sultanı tərəfindən

idarə olunurdu (Константинов 1846). XVII əsrin sonu üçün bu avar-saxur azad icmaları Car ittifaqına daxil idi (Петрушевский 1993: 33).

Yazılı mənbələrin araşdırılması ilə bərabər avar etnoniminin türk dilləri ilə izah olunması da bizə bu gün Şimali Qafqazda, hənçinin Azərbaycanın şimal-qərbində yaşayan avarların qədim türk tayfalarının, qüdrətli avarların varisləri olduğunu söyləməyə əsas verir. "Avar" sözü türk dillərindəki "avara", və ya "ayara" sözündən olub "çılğın, dikbaş, döyüşkən, dalaşqan" və ya "dirənən, qarşı gələn" kimi izah edilir (Велиев 1921: 30). Görünür, yuxarıda da qeyd etdiyimiz kimi, tarixin bütün mərhələlərində döyüşkən xalq kimi tanınan avarların tez-tez müharibələrə cəlb edilməsi də məhz bu xüsusiyyətləri ilə bağlı idi və xüsusiyyətlər onlara verilən etnik adda da öz adını tapmışdı.

Avar xalqının etnik özünü adlandırması isə "maurlal" və ya "maurlan" şəklindədir. XIX əsrə aid ədəbiyyatlarda da avarların özlərini "baualal", "maarulal", "marulan" adlandırması barədə məlumatlar var (Шопен 1841: 345; Dünya Halkları Ansiklopedisi). Avarların bu etnik özünüadlandırmasının mənası dəqiq məlum olmasa da, tədqiqatçılar bunu, "çiy ət yeyənlər" (Велиев 1921: 23) və ya "dağlarda gəzən, dağ adamı" (Шопен 1841) kimi izah edirlər. Bu xüsusiyyətlər qədim türk mifologiyasında mühüm yer tutan qurda məxsus xüsusiyyətlərdir. Maraqlıdır ki, avar dilində *bats* adıanan qurd kəlməsi qədim türk dillərində də *börü, buri* kimi ifadə edilir. Beləliklə, "baqaulal" sözünə aid edilən xüsiyyətlərin məhz qurda aid olduğunu (dağlarda gəzən, çiy ət yeyən) nəzərə alsaq, bu kəlmənin *baqa-börü* və *ulal-ulan-oğlan (*Hazırda Türkiyənin dialektlərində də oğlan sozü "ulan" şəklində ifadə edilməkdədir.) sözbirləşməsinin fonetik dəyişikliyə uğramış forması olub "qurd oğlan" anlamına gəldiyini ehtimal etmək olar. Ümumiyyətlə, avarların dilində bir çox türkmənşəli kəlmələr, məsələn, "*kibil*"-qəbilə, nəsil, "*raxat*"-rahat, rəvan, "*pax*"-paxır, "*koy*"-qoyun (Гейбуллаев 1994: 456) kimi bir çox kəlmələr qorunub saxlanmışdır. Keçmişdə avarların Qanıq çayını da *Raxat* adlandırdıqları məlumdur (Велиев 1921).

Yuxarıda da qeyd etdiyimiz kimi, qədim avarlar türk tayfalarının mühüm rol oynadığı böyük tayfa ittifaqı yaratmışdılar. Avarlar qərbə döğru hərəkət etdikləri zaman onlara müxtəlif tayfalar qoşulduqları üçün Avar tayfa ittifaqının etnik tərkibi müxtəlif olmuşdur. Görünür, bu tayfalardan birinin etnik özünüadlandırması məhz "baqualal" və ya "marulan" şəklində olmuşdur.

Bölgədə yaşayan avarların başlanğıc, ulu əcdadla bağlı mifik rəvayətlərində də türk xalq inaclarının izləri özünü göstərir. Avarların geneologiyası ilə bağlı əfsanələrində də qədim türk inanclar sisteminin əsasını təşkil edən qurd mifinə rast gəlinir. Zaqatala rayonunun Car kəndinin avarları öz əcdadlarının ağ qurddan (avarca *batsa-kakov*) törədiklərini söyləyirdilər (Косвен 1960: 30).

Həm yazılı abidələrdən, həm də dastanlardan məlumdur ki, türklər öz əcdadlarını qurda bağlamışlar və bu inam xüsusilə hunlar arasında geniş yayılmışdı. Türk tayfaları üçün hər zaman əcdad, xilaskar olan boz qurdun funksiyasını Hun dövləti dövründə məhz "ak Tuğan" (ağ qurd-M.P) yerinə yetirmişdir (Şükürov 1997: 103). Türk xalqlarından buryatlar da ağ qurdu müqəddəsləşdirərək onu göy-səma iti

adlandırırdılar (Галданова 1987: 36). Göründüyü kimi, qədim türk tayfalarında əcdad kimi çıxış edən qurd, ağ qurd avar xalqının da geneoloji miflərində mühüm yer tutur. Bu da onların türk avarların nəslindən olduğunu bir daha göstərir.

Hazırda Zaqatala rayonunun Paşan kəndində "*Bats*" (Qurd) və "*Kaxov*" (Ağ kişi) adlı iki toxum (nəsil) də mövcuddur (Косвен 1960: 30). Göründüyü kimi, bu nəsil adları da qədim türk mifologiyasının izlərini daşıyır. Qeyd etmək lazımdır ki, həm türk, həm də azərbaycan mifologiyasında qurdla bərabər "Ağ oğlan", "Ağ atlı oğlan" adlı mifik qəhrəman mövcud olmuşdur (Azerbaycan Xalq Nağılları 1952). Məlumdur ki, qədim türk qəhrəmanlıq dastanları və nağıllarımızda "Ağ oğlan" obrazı həm də qurdun simvolu kimi çıxış edir (Bayat 2004: 104).

Kaxov (ağ kişi) nəslinin kökünün ağ hunlarla da əlaqəli olması ehtimalı da mümkündür. Məlumdur ki, hunların bir qismi ağ hunlar adlanırdılar və ti-le adı ilə Qafqazda məskunlaşmışdılar (Велиев 1921: 31). Ptolomey də Albaniyada Tilbida adlı yaşayış məntəqəsinin adını çəkir (Ptolomey, V,XI,7) Hazırda Zaqatala rayonundakı Tsilban, Balakən rayonundakı Tsolban-Çolban kimi avar kəndlərində də ti-le etnoniminin izləri öz əksini tapmışdır. Maraqlıdır ki, bu gün Dağıstan ərazisində də avarların kompakt yaşadığı bir bölgə məhz Tilyarat adlanır.

Göründüyü kimi, həm yazılı mənbələr, həm də etnoqrafik məlumatlar müasir avarların türk xalqlarından ayrılıb Qafqaz dağlarının xarici aləmdən təcrid olunmuş mühitinə- iberoqafqaz xalqlarının əhatəsinə düşərək tədricən assimilyasiyaya uğrayaraq əvvəlki etnik mənsubiyyətlərini itirmiş türk avarların varisləri olduğunu söyləməyə əsas verir.

Beləliklə, apardığımız araşdırmalar bu gün Azərbaycanın şimal-qərb bölgəsində, həmçinin Şimali Qafqazda yaşayan müasir avarların qədim hun və ağ hunlarla etnogenetik bağları olduğunu, eyni zamanda hun-türk tayfaları arasında mühüm yer olan qədim, qüdrətli avarların varisləri olması qənaətinə gəlməyə imkan verir.

**KAYNAKLAR**

1. Ган Е.Ф. Путеществие в Кахетию и Дагестан. СМОМПК,вып.31. II отдел, Тифлис.1902.
2. Национальный состав населения Азерб.ССР. Баку. 1990
3. Гейбуллаев Г. К этногенезу Азербайджанцев. Баку.1994.
4. Сумбатзаде Этногенез Азербайджанского народа. Баку.1990.
5. Dünya xalqları. Ensiklopedik lüğat. Bakı.1998.
6. Велиев М.Г. (Бахарлы) Азербайджан. Баку. 1921.
7. Mahmudlu Y. İlusu sultanlığı-tarixi xəzinəmizdən bir inci. Letifova E.M. Severo-Zapadnıy Azerbaydjan.İlisuyskoe sultanstva. Baku.1999.
8. Бакыханов А. Гюлистан-и Ирам.Баку.1991.
9. Hacıyeva M. Türk dünyası və qardaş ölkələr ədəbiyyatı.Ankara.1997.
10. Пигулевская Н.В. Сирийские источники по истории народов СССР.Москва-Ленинград.1941.
11. Латыщев В.В. Известия древних писателей, греческих и латинских, о Скифии и Кавказе. т.I.вып.1.СПб.,1893.
12. Константинов И.О Джаро-Белокаканы до Х1Х столетие. газета Кафказ. №2-3.1846.
13. Плотто А.И. Природа и люди Закатальского округа.ССКГ Вып.4. Тифлис.1890.
14. Петрушевский И.Р. Джаро-Белоканские вольные общества в первой половине Х!Х века. Махачкала.1993.
15. Шопен И.И. Кавказ и его обитатели. Обозрения закавказского края.ЖМГИ. с.1.кн.2.СПб.,1841.
16. Косвен М.О. Этнография и история Кавказа. Москва.1960
17. Şükürov A. Mifologiya. VI.Bakı.1997.
18. Галданова Г.Р. Доисламские верования бурят. Новосибирск .1987.
19. Ağ atlı oğlan. Azerbaycan xalq nağılları. Bakı.1952
20. Bayat F. Od ruhu.Folklor ve etnoqrafiya.2004. N3.